**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

15 iyul 2022-ci il
№27 (8985)

www.muallim.edu.az
muallim@edu.gov.az



# MÜƏLLİM olmaq istəyirəm...

İyulun 14-dən 2022-2023-cü tədris ili üçün ümumtəhsil müəssisələrinə müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsi start götürdü. Bu il ilk imtahan riyaziyyat müəllimliyi üçün təşkil olundu. Ölkə üzrə 4000-dən artıq şəxs eyni gün, eyni saatda riyaziyyat müəllimliyi üçün imtahan verdi. Səhər saat 10.30-da başlayan imtahanlarda dəvət olunanların əksəriyyəti iştirak etdi. Bakı şəhərində imtahan mərkəzlərindən biri ənənəvi olaraq Azərbaycan Texniki Universitetinin idman zalı idi. İmtahan həyəcanı binanın həm içərisində, həm də çölündə hiss olunur. Gözünü binanın qapılarına dikən ata-analar, qucağında uşaqla həyat yoldaşını gözləyən ərlər var. "Özüm də imtahan verəcəyəm, fiziki tərbiyə müəllimliyi üçün", - deyib uzaqlaşan və vaxtından əvvəl binanın qabağında yerini tutan namizədlər də çoxdur.

Ardı səh.8

## Bu gün 9000-dən çox namizəd imtahan verəcək

## BU SAYIMIZDA

### Milli Aviasiya Akademiyasında "Məzun günü"



İyulun 8-də Milli Aviasiya Akademiyasında "Məzun günü" keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Akademiyanın birinci prorektoru Ədalət Səmədov iştirakçılara rektor Arif Paşayevin salamlarını çatdırıb. Akademiyanın tarixinə nəzər salan Ədalət Səmədov diqqətə çatdırıb ki, hazırda bakalavriat üzrə 21, magistratura üzrə 17, doktorantura üzrə 10 ixtisas tədris edilir. Bu tədris ilində Milli Aviasiya Akademiyasında 1352 nəfər bakalavriat, 59 nəfər magistratura səviyyəsi üzrə təhsil alıb.

səh.3

### Çində təhsil almaq hüququ qazananlar müəyyənləşib



Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında uğurlu əməkdaşlığın nəticəsi olaraq, ümumilikdə 31 nəfər azərbaycanlı Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində 2022-2023-cü tədris ili üzrə Çin Xalq Respublikasının nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.

Müvafiq təqaüd proqramı barədə elan *(https://htp.edu.az/az/news/1136#.YtABB7jri9J)* 21 dekabr 2021-ci il tarixində verilib.

səh.3

### Narkomaniyaya YOX!




Narkomaniya müasir dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial bəlalardan biridir. Narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Hesablamalara görə, bu gün dünyada 250 milyona yaxın insan narkotiklərdən əziyyət çəkir. Bu, 15-64 yaş üzrə dünyada əhalinin 5%-ni təşkil edir. Narkomaniyanın qarşısının alınmasının əsas məqsədi sağlam mühit və sağlam gələcək yaratmaqdır. Buna görə də cəmiyyətdə və yaxın ətrafımızda sağlam həyat tərzini təbliğ etmək, zərərli vərdişlərə qarşı profilaktik tədbirlər görmək daim diqqətdə saxlanılan vacib məsələlərdəndir.

səh.7





## Xızıda sertifikatlaşdırmaya dair görüş

İyulun 14-də Xızı rayonunda direktor, direktor müavinləri və ibtidai sinif müəllimləri ilə sertifikatlaşdırma prosesinə dair məlumatverici görüş keçirilib. Görüşdə Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin əməkdaşı Tükəzban Quliyeva təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı təqdimatla çıxış edib.

Daha sonra çıxış edən Abşeron-Xızı Regional Təhsil İdarəsinin əməkdaşı Oktay Abdullayev görüşün mahiyyəti barədə danışıb.

Görüşdə iştirak edən Təhsil İnstitutunun ibtidai təhsil üzrə təlimçisi Vəfa Məmmədova da öz növbəsində sertifikatlaşdırmanın mərhələləri, məzmunu ilə bağlı məsələlər barədə fikirlərini bölüşüb, çərçivə sənədi və ibtidai təhsil üzrə nümunə test tapşırıqlarını izah edib.

Görüşdə Təhsil Nazirliyi tərəfindən sertifikatlaşdırma prosesində iştirak edəcək təhsilverənlərə dəstək tədbirlərinin görüləcəyi də vurğulanıb.

Sonda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Təhsil naziri “Birgə və Sağlam” İctimai Birliyinin Autizm Mərkəzini ziyarət edib







İyulun 8-də təhsil naziri Emin Əmrullayev paytaxtın Nizami rayonundakı “Birgə və Sağlam” İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizm Mərkəzini ziyarət edib.

Təhsil naziri Emin Əmrullayev Mərkəzdə yaradılan şəraitlə tanış olub.

Direktor Aytən Eynalova Mərkəzdə hazırda 90-a yaxın autizmspektr pozğunluqları olan şəxslərə verilən dəstək proqramları haqqında ətraflı məlumatı diqqətə çatdırıb. Nazir proqramların təlim zamanı tətbiqi prosesini əyani şəkildə izləyib.

Daha sonra emalatxana ilə tanış olan Emin Əmrullayev Mərkəzin daxilində fəaliyyət göstərən "Kaşalata cafe"də autizmli gənclərdən ibarət “Mavi ürəklər” xor qrupunun ifasında mahnıları dinləyib. Kafenin autizmli gəncləri tərəfindən müxtəlif tamaşalar nümayiş olunub.

Görüş zamanı Nazirliklə Mərkəz arasında gələcək əməkdaşlıq imkanları da müzakirə olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.



## Respublika fənn olimpiadalarının nəticələri barədə

### Azərbaycan Respublikası təhsil nazirinin əmri

2021/2022-ci tədris ili üzrə həyata keçirilmiş məktəblilərin Respublika fənn olimpiadalarının nəticələrinin elan edilməsi məqsədilə “Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. 2021/2022-ci tədris ili üzrə Respublika fənn olimpiadalarının nəticələri elan edilsin (nəticələrin siyahısı əlavə olunur).
2. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin çoxaldılıb aidiyyəti struktur qurum və bölmələrə, yerli təhsili idarəetmə orqanlarına çatdırılmasını təmin etsin.
3. İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) əmrin Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirilməsini və “Azərbaycan müəllimi” qəzetində dərc edilməsini təmin etsin.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*29 iyun 2022-ci il*

## Təhsilverənlərin NƏZƏRİNƏ!

Təhsil Nazirliyi tərəfindən təhsilverənlərin sertifikatlaşdırılması prosesi ilə bağlı iyulun 14-dən 25-dək aşağıda qeyd olunan 14 regionda görüşlər təşkil olunacaq.

Regionlar üzrə keçiriləcək görüşlərdə sertifikatlaşdırılma prosesinin təhsilin keyfiyyət göstəricilərinə, təhsilverənlərin karyera inkişafına müsbət təsirləri və digər məsələlər barədə müzakirələr aparılacaq, təhsilverənləri maraqlandıran suallar cavablandırılacaq.

Görüşlərdə iştirak etmək istəyən ibtidai sinif müəllimləri iyul ayının 13-dək aşağıdakı linkə daxil olaraq qeydiyyatdan keçə bilərlər:

*https://docs.google.com/forms/d/13FGyhrdoWQH4wzEH9_XPB4-BkOoNt6s35on0HWJ5L5s/edit*

## Əqli mülkiyyət hüququ ixtisaslaşması üzrə ilk məzunlar işlə təmin olunacaqlar

Bakı Dövlət Universitetində (BDU) magistratura səviyyəsində Əqli mülkiyyət hüququ ixtisaslaşması üzrə ilk məzunların buraxılışı olub.

Bu tədris ilində Əqli mülkiyyət hüququ ixtisaslaşması üzrə 9 tələbə məzun adını qazanıb. Onların hamısı Əqli Mülkiyyət Agentliyində işlə təmin olunacaq.

Əqli Mülkiyyət Agentliyinin sədri Kamran İmanov və BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara Fəxri fərman təqdim ediblər.

Qeyd olunub ki, respublikada əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin nüsxələrinin qeyri-qanuni istehsalı və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətlərin tənzimlənməsi üzrə praktiki bilik və bacarıqlara malik ixtisaslı kadrların hazırlanması məqsədilə 2019-cu ildə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov tərəfindən Əqli mülkiyyət hüququ ixtisaslaşmasının yaradılması təşəbbüsü irəli sürülüb.

Əqli mülkiyyətin mühafizəsi sahəsində ixtisaslı kadrların hazırlanması məqsədilə 2019-cu il 16 dekabr tarixində Əqli Mülkiyyət Agentliyinin dəstəyi ilə respublikada ilk dəfə olaraq BDU-da Əqli mülkiyyət hüququ kafedrası yaradılıb. Hazırda kafedrada 5 professor-müəllim çalışır. Təhsil-elm-istehsalat əlaqələrinin genişləndirilməsi ilə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması məqsədilə BDU ilə bərabər agentlikdən 4, Dövlət Neft Şirkətindən 1 və Mərkəzi Bankdan 1 mütəxəssis tədris prosesinə cəlb olunub.

Respublikamızda “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə kreativ düşüncəli mütəxəssislərin hazırlanması məqsədilə 2021-ci il 30 yanvar tarixində BDU ilə Fransanın Lion 2 Universiteti arasında Anlaşma memorandumu imzalanıb.

2021-ci il 18 iyun tarixində isə beynəlxalq ikili diplom proqramı üzrə imzalanmış müqavilə əsasında BDU ilə Fransanın Lion 2 Universiteti arasında Əqli mülkiyyət hüququ ixtisaslaşmasında kadr hazırlığı həyata keçirilir.

İxtisaslaşmanın tədris planına dünya əmək bazarının tələblərinə uyğun olan və bir çox dünya ölkələrinin qabaqcıl universitetlərində tədris edilən fənlər - Əqli mülkiyyət hüququnun müasir problemləri; Əqli mülkiyyət hüququ sahəsində Hüquq İnstitutları; Mədəniyyətin qorunması hüququ; Müəllif hüquqları və əlaqəli hüquqlar; Ticarət nişanı hüququ; Patent hüququ və sirrin qorunması; Avropa əqli mülkiyyət hüququ; Beynəlxalq xüsusi hüquq və s. daxil edilib. Tədris prosesinə Fransanın Lion 2 Universitetindən 3 professor-müəllim cəlb olunub.

İxtisaslaşma üzrə ikili diplom proqramı çərçivəsində tədrisin ingilis və fransız dillərində aparıldığını nəzərə alaraq, fransız dilinin aparıcı mütəxəssislər tərəfindən tədris edilməsi və BDU-da intensiv fransız dili kurslarının təşkil olunması məqsədilə BDU və Azərbaycan-Fransız Universiteti arasında müvafiq razılıq əldə edilib.

Hazırda ixtisaslaşma üzrə 18 tələbə təhsil alır.

## ADPU-da vahid sistem əsasında institusional qiymətləndirmə aparılıb

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının iclası keçirilib.

İclasın əvvəlində ADPU-nun rektoru, professor Cəfər Cəfərov universitetin alimləri- Şəhla Əliyevaya və Əli Zalova professor elmi adını təsdiq edən attestatları təqdim, həmçinin tədrisdə, ictimai həyatda fərqlənən tələbələri təşəkkürnamə və Fəxri fərmanla təltif edib.

İclasda 2021-ci il üçün ADPU-da İnstitusional Qiymətləndirmənin nəticələri haqqında hesabatla çıxış edən Keyfiyyətin təminatı şöbəsinin müdiri, dosent Qalib Şərifov ölkəmizdə ilk dəfə olaraq ADPU-da 38 keyfiyyət göstərici üzrə vahid sistem əsasında filial, kollec, fakültələr və SABAH qruplarının institusional qiymətləndirilməsinin aparıldığını qeyd edib.

Cari təqvim ilindən başlayaraq, hər ilin 1-20 aprel tarixləri arasında həyata keçirilən İnstitusional Qiymətləndirmənin məqsədi universitetin müxtəlif strukturlarının müqayisəli inkişaf dinamikasını və əsas inkişaf istiqamətlərini, qarşıda duran vəzifələri müəyyənləşdirməkdir.

Şöbə müdiri, həmçinin yeni tədris ilindən etibarən əməkdaşların reytinq qiymətləndirmə meyarlarında aparılacaq təkmilləşdirmələr haqqında məlumat verib.

Tədris işləri üzrə prorektor, dosent Eldar Aslanov 2021/2022-ci tədris ili üzrə bakalavrların yaz imtahan sessiyasının yekunları barədə məruzə ilə çıxış edərək bildirib ki, imtahanlar əsasən 01 iyun - 01 iyul 2022-ci il tarixlərində tərtib olunmuş cədvəl üzrə keçirilib və 2021/2022-ci tədris ilinin yaz semestrinin imtahanlarında bakalavriat səviyyəsində təhsil alan tələbələrdən 8176 nəfər iştirak edib.

İmtahanlar yazılı, şifahi və hibrid formada təşkil olunub. İmtahan sessiyası dövründə Apelyasiya Komissiyasına 2434 ərizə daxil olub ki, onlardan 61 faizində nəticələr olduğu kimi saxlanılıb, 30 faizi isə müsbət həll edilib. İmtahan qaydalarını pozduğuna görə 111 nəfər tələbənin imtahan işi ləğv olunub.

Prorektor qeyd edib ki, imtahan sessiyasının yekunlarına əsasən, universitet üzrə tələbələrin müvəffəqiyyət və keyfiyyət göstəriciləri ötən ilin analoji sessiyası ilə müqayisədə bir qədər azalaraq 85 % və 53 % təşkil edib ki, bu da yenidən əyani imtahanlara keçidlə bağlı təbii dalğalanmadır. Bunun əksinə, buraxılış yekun dövlət attestasiyasında tələbələr buraxılış işləri üzrə 99,8 %, dövlət imtahanları üzrə isə 91 % müvəffəqiyyət əldə ediblər.

Dosent E.Aslanov yekunda bildirib ki, ADPU tədrisin keyfiyyətinin artırılması üçün davamlı tədbirlər görür və bunun üçün elmi-pedaqoji heyətin səriştələrinin davamlı artırılması, beynəlxalq proqramların uğurla icrası, habelə müasir tədris təchizatının artırılması istiqamətində yeni tədris ilində də işlər davam etdiriləcək. Bu tədbirlərdə 16 mart - 05 aprel 2022-ci il tarixində ADPU-da bütün fakültə, filiallar və kollec üzrə tələbə və magistrantlar arasında tədris, öyrənmə mühiti, təchizat, gözləntilər və digər istiqamətlər üzrə 8964 təhsilalanın iştirakı ilə keçirilən meqasorğunun nəticələri də nəzərə alınacaq.

Şurada elm və innovasiyalar üzrə prorektor, professor Asəf Zamanov 2021/2022-ci tədris ili üzrə magistrlərin dissertasiya işlərinin müdafiəsi və yaz imtahan sessiyasının yekunları barədə məruzə ilə çıxış edərək vurğulayıb ki, 296 magistrant imtahan sessiyasında iştirak edib. Onların müvəffəqiyyət və keyfiyyət göstəriciləri müvafiq olaraq 97,9% və 81,37% təşkil edir.

Sonda rektor C.Cəfərov yekun sözü ilə çıxış edərək qarşıda duran əsas vəzifələr haqqında danışıb, tədqiqat universitetinə çevrilmək üçün vahid plan üzrə irəliləməyin önəmini qeyd edib.

# Milli Aviasiya Akademiyasında "Məzun günü"







İyulun 8-də Milli Aviasiya Akademiyasında "Məzun günü" keçirilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Akademiyanın birinci prorektoru Ədalət Səmədov iştirakçılara rektor Arif Paşayevin salamlarını çatdırıb.

Akademiyanın tarixinə nəzər salan Ədalət Səmədov diqqətə çatdırıb ki, hazırda bakalavriat üzrə 21, magistratura üzrə 17, doktorantura üzrə 10 ixtisas tədris edilir.

Bu tədris ilində Milli Aviasiya Akademiyasında 1352 nəfər bakalavriat, 59 nəfər magistratura səviyyəsi üzrə təhsil alıb. Akademiyadan 396 nəfər bakalavr, 47 nəfər magistr məzun olur. Bakalavrlardan 50-si, magistrlərdən 27-si təhsili fərqlənmə diploma ilə başa vurur.

Tədbirdə Milli Aviasiya Akademiyasının tarixinə dair fotoslayd, müasir dövrü haqqında videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov Milli Aviasiya Akademiyasını fərqlənmə diplomu ilə bitirən məzunların sayının yüksək olmasını xüsusi qeyd edib. Nazir müavini akademik Arif Paşayevin uzaqgörənliyi sayəsində sözügedən təhsil müəssisəsində təlim-tədrisin yüksək səviyyədə aparıldığını, maddi-texniki bazasının möhkəmləndirildiyini vurğulayıb. Firudin Qurbanov işğaldan azad edilmiş ərazilərdə ən yüksək səviyyədə infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdıraraq həmin layihələr üzrə gənclərin fəaliyyətinə ehtiyac olacağını bildirib. Ölkəmizdə gənclərin təhsilinə xüsusi diqqət ayrıldığını deyən Firudin Qurbanov xaricdə təhsil üzrə yeni Dövlət Proqramı barədə danışıb.

Nazir müavini çıxışının sonunda məzunları təbrik edib və onlara uğurlar arzulayıb.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov çıxışında əmək bazarının tələblərindən söz açıb, Akademiyanın məzunlarına daim öz üzərində işləməyi tövsiyə edib.

AMEA Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxışında məzunların müstəqil həyatının uğurlu olmasını arzulayıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov məzunlara məqsədlərinə doğru inamla irəliləməyi, özlərində dəyərlər formalaşdırmağı tövsiyə edib.

Çıxış edən Xalq şairi Nəriman Həsənzadə akademik Arif Paşayevin rəhbəri olduğu professor-müəllim kollektivinin fəaliyyətini yüksək qiymətləndirib, məzunlara uğurlar arzulayıb.

Sonra məzunlara sertifikatlar təqdim olunub.

"Məzun günü" bədii proqramla davam edib.

# Birgə əməkdaşlıq, uğurlu istiqamət






## "BestComp Group" tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşən təhsil müəssisələri üçün 1000 ədəd kompüter ianə edilib

"BestComp Group" tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşən təhsil müəssisələri üçün 1000 ədəd kompüter ianə edilib

İyulun 13-də Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsilin İnkişafı Fondu və "BestComp Group" MMC arasında Niyyət Protokolunun imzalanması mərasimi keçirilib.

Mərasimdə təhsil nazirinin müavini Muxtar Məmmədov, Təhsil Sisteminin İnformasiyalaşdırılması idarəsinin rəisi Vüsal Xanlarov, Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, "BestComp Group" MMC-nin baş direktoru Fərid Həsənov və digər nümayəndələr iştirak edib.

Qeyd edilib ki, imzalanmış sənədə əsasən "BestComp Group" MMC şirkəti tərəfindən işğaldan azad olunmuş ərazilərdə yerləşən təhsil müəssisələrinə 1000 ədəd kompüter avadanlıqları ianə olunacaq.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Muxtar Məmmədov cəmiyyətin gələcək həyatının təhsilin rəqəmsal transformasiyasından asılı olduğunu qeyd edərək bu istiqamətdə Təhsil Nazirliyinin, digər hökumət qurumlarının və özəl sektorun əlaqələndirilmiş şəkildə fəaliyyətinin vacibliyini vurğulayıb. Nazir müavini işğaldan azad olunmuş ərazilərdə yenidənqurma prosesi çərçivəsində qurulacaq şəhər və kəndlərdə istifadəyə veriləcək təhsil müəssisələrində müasir İT infrastrukturunun qurulması məsələsinə toxunub. Muxtar Məmmədov bildirib ki, bu da öz növbəsində ölkədə təhsilalanlar üçün bərabər, fərdiləşdirilmiş və sənaye-əsaslı təhsil imkanlarının yaradılması deməkdir.

"BestComp Group" MMC-nin baş direktoru Fərid Həsənov da öz növbəsində təhsil sahəsində olan əməkdaşlığın cari vəziyyəti barədə məlumat verib və gələcək əməkdaşlıq istiqamətlərində təkliflərini irəli sürüb.

# HTP çərçivəsində Çində təhsil almaq hüququ qazananlar müəyyənləşib



Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında uğurlu əməkdaşlığın nəticəsi olaraq, ümumilikdə 31 nəfər azərbaycanlı Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində 2022-2023-cü tədris ili üzrə Çin Xalq Respublikasının nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.

Müvafiq sazişə əsasən, seçim barədə Çin Xalq Respublikası tərəfindən verilən yekun qərar nəticəsində 31 nəfər bu ölkənin "Fudan University", "Beijing Institute of Technology", "China University of Petroleum-Beijing", "University of Science and Technology Beijing", "Zhejiang University", "Huazhong University of Science and Technology", "Shanghai Jiatong University", "Renmin University of China" kimi ali təhsil müəssisələrində süni intellekt, proqramlaşdırma və kompüter elmləri, media və kommunikasiya, tibb, iqtisadiyyat və idarəetmə, maliyyə, neft-qaz mühəndisliyi, mikrobiologiya kimi ixtisaslar üzrə bakalavriat (5 nəfər), magistratura (22 nəfər) və doktorantura (4 nəfər) səviyyələri üzrə təhsil almaq hüququ qazanıb.

Müvafiq təqaüd proqramı barədə elan *(https://htp.edu.az/az/news/1136#.YtABB7jri9J)* 21 dekabr 2021-ci il tarixində verilib.

# 204 məktəbdə elektron jurnal və gündəlik sistemi tətbiq edilib

Ölkə üzrə 204 ümumi təhsil müəssisəsində e-Jurnal və e-Gündəlik sisteminin tətbiqi davam etdirilir. Sözügedən təhsil müəssisələri Bakı, Sumqayıt şəhərləri və digər 11 bölgədə yerləşir.

Layihənin məqsədi müəssisə üzrə pedaqoji və inzibati-idarəetmə heyəti tərəfindən elektron qiymətləndirmənin səmərəli təşkili və sənədləşmə prosesinin rəqəmsallaşmasıdır. Bu sistem vasitəsilə hər müəssisə üzrə tədris növbələrinin təyin olunması, dərs cədvəllərinin tərtib edilməsi, elektron profillərin tənzimlənməsi və siniflər üzrə şagird məlumatlarının idarə olunması elektronlaşdırılıb. Həmçinin elektron jurnal şagirdlərin müvəffəqiyyət və davamiyyətini, eyni zamanda mövzular üzrə dərs materiallarının mənimsənilməsi keyfiyyətini təhlil etmək imkanı da yaradır. Tətbiq olunan sistem vasitəsi ilə valideyn-məktəb və valideyn-müəllim əlaqələrinin əlçatanlığı artırılıb.

Hazırda "Elektron jurnal və gündəlik" sistemi 204 təhsil müəssisəsinin 324357 şagird və 23337 müəllimini əhatə edir. Növbəti tədris ilindən daha 158 müəssisədə də bu sistemin tətbiqi nəzərdə tutulur. Bununla da "Elektron jurnal və gündəlik" sisteminin 536646 şagird və 37448 müəllimi əhatə etməsi proqnozlaşdırılır.

Qeyd edək ki, elektron jurnalın funksionallıqları ilə bağlı istifadəçilərdən gələn tələb və təkliflər nəzərə alınmaqla hər tədris ilində təkmilləşdirmələr aparılır.

# MDU yeni inkişaf mərhələsində: əsas hədəflər və nəticələr

## 2021/2022-ci tədris ili: mövcud imkanlar, tədris və elmi fəaliyyətdə yeniliklər



**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

2021/2022-ci tədris ili Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və yenilməz Azərbaycan Silahlı Qüvvələrinin rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin birinci ildönümü, eləcə də ölkəmizdə 2022-ci ilin “Şuşa İli” elan edilməsi ilə əlaqədar olaraq bir çox əlamətdar hadisələrlə yadda qalmışdır.

### Reallıqlar, dövlət dəstəyi və strateji hədəflər

Eyni zamanda, dünyada pandemiyanın davam etdiyi bir şəraitdə Azərbaycanda COVID-19 infeksiyasına qarşı həyata keçirilən effektiv mübarizə tədbirləri sayəsində uzunmüddətli fasilədən sonra cari tədris ilində respublikamızın ali təhsil müəssisələrində, o cümlədən Mingəçevir Dövlət Universitetində (MDU) ənənəvi təhsil müəyyən məhdudiyyətlərlə bərpa, tədris və təlim-tərbiyə prosesi mövcud qaydalara uyğun təşkil edilmişdir.

Dövlət başçısının ali təhsil sahəsində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək hökumət tərəfindən qəbul edilmiş yeni qaydalar və təlimatlar, Təhsil Nazirliyinin birbaşa dəstəyi ilə ali təhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlər, eləcə də universitetlərdə əldə edilən təcrübələr və yaradılan yeni imkanlar cari tədris ilinin uğurla başa çatdırılmasına və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur.

Strateji olaraq yeni dövrün universitetinə çevrilməyi, paytaxtın qabaqcıl universitetləri səviyyəsində ali təhsil xidmətləri göstərməyi, ölkəmizin, o cümlədən regionun hərtərəfli inkişafına davamlı töhfə verməyi hədəfləyən MDU-da bütün fəaliyyətlər milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan inkişaf trendləri, meydana çıxan yeni çağırışlar və reallıqlar, eləcə də mövcud potensial nəzərə alınaraq həyata keçirilmişdir.

### Mövcud potensial və modernləşmə

Hazırda universitetdə iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən 24 ixtisas (bakalavriat) və 14 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. Üç fakültənin və on kafedranın mövcud olduğu universitetdə 2021/2022-ci tədris ilində ümumilikdə 3000-ə yaxın tələbə və magistrant təhsil alıb. Bütövlükdə 300-dən çox əməkdaşı olan MDU-da 195 professor-müəllim heyəti çalışır ki, onlardan 5 nəfərin elmlər doktoru, 57 nəfərin isə fəlsəfə doktoru elmi dərəcəsi, 3 nəfərin professor və 43 nəfərin isə dosent elmi adı vardır. Bundan əlavə, cari tədris ilində MDU-da Türkiyənin Qazi Universitetindən 2 professor fəaliyyət göstərmişdir.

Ali təhsilə dövlətin yüksək diqqət və qayğısı, yerli və xarici tərəfdaşların dəstəyi, universitetin tələbə və müəllim kollektivinin əməyi, eləcə də idarəetmədə səmərəliliyin, çevikliyin və şəffaflığın artırılması sayəsində cari tədris ilində MDU-nun potensialının inkişafı və modernləşməsi istiqamətində əhəmiyyətli nəticələr əldə olunmuşdur. Hesabat dövründə tədrisin hibrid formatda səmərəli təşkilinə nail olunmuş, elmi fəaliyyətdə müsbət kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, sosial sahədə fəaliyyətlər genişlənmiş, idarəetmənin strukturu müasir tələblərə uyğun daha da təkmilləşdirilmiş və rəqəmsallaşdırılmış, yerli və beynəlxalq tərəfdaşlıqlar, sənaye ilə işbirliyi gücləndirilmişdir.

Keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan MDU-da təhsilalanların və təhsilverənlərin hərtərəfli inkişafına şərait yaradan əlverişli təhsil mühitinin təmin edilməsi diqqət mərkəzində saxlanılır. Tələbələrin müasir bilik və bacarıqlar əldə etməsi ilə yanaşı, onların milli-mənəvi dəyərlər əsasında və vətənpərvərlik ruhunda tərbiyə olunmasına, tədqiqat, yaradıcılıq və digər qabiliyyətlərinin inkişafına, startap fəaliyyətlərinin təşviqinə və universitet idarəçiliyinə fəal cəlb olunmasına mühüm önəm verilir. Eləcə də, akademik, inzibati və texniki heyət üzvlərinin bilik və bacarıqlarının artırılması, onların karyera inkişafı, sosial rifahı və əmək şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Regional ekosistemin drayverinə çevrilməklə milli ali təhsil məkanında mövqeyini daha da gücləndirməyi hədəfləyən MDU-da əmək bazarının müasir tələblərinə uyğun olaraq kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədqiqat və innovasiya potensialının gücləndirilməsi, mövcud infrastrukturun və maddi-texniki bazanın genişləndirilməsi və yenilənməsi, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq dövlət və özəl qurumlar ilə işbirliyinin səmərəliliyinin artırılması prioritet fəaliyyət istiqamətlərini təşkil edir.

2021/2022-ci tədris ili üçün MDU-da bakalavriat və magistratura səviyyələri üzrə tələbə qəbulu planının əvvəlki dövrlərlə müqayisədə daha çox yerinə yetirilməsini, eyni zamanda universitetə yüksək balla qəbul olan tələbələrin sayında artımın müşahidə edilməsini son dövrdə MDU-nun imicinin yüksəldilməsi və modernləşməsi istiqamətində görülən işlərin ilkin nəticəsi kimi qiymətləndirmək olar.

Hazırda dövlətin hərtərəfli dəstəyi ilə universitetin müasir tələblərə cavab verən yeni kampusunun yaradılması istiqamətində müvafiq işlər davam etdirilir. Cari il iyunun 28-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə kampus ərazisinə baxış keçirilmişdir. Yaxın gələcəkdə modern infrastruktura malik yeni kampusun istifadəyə verilməsi MDU-nun yeni dövrün universitetinə çevrilməsi yolunda qarşıya qoyduğu hədəflərə doğru sürətlə irəliləməsinə zəmin yaradacaqdır.

### Tədrisin səmərəli təşkili və keyfiyyət təminatı

2021/2022-ci tədris ilində MDU-da ənənəvi tədrisə qayıdış Nazirlər Kabinetinin müvafiq Qərarlarına, Təhsil Nazirliyinin müvafiq əmrləri və təlimatlarına əsasən həyata keçirilmişdir. Xüsusi karantin rejiminin mövcud tələbləri, qanunvericiliyə edilmiş müvafiq dəyişikliklər, mövcud infrastruktur imkanlar, təhsilalanların və akademik heyətin COVID-19 infeksiyasından maksimum qorunması amilləri nəzərə alınmaqla Elmi Şura tərəfindən cari tədris ilində universitetdə tədrisin və təlim-tərbiyə prosesinin təşkilinə dair müvafiq qaydalar qəbul edilmişdir.Qaydalara əsasən MDU-da mühazirə dərsləri məsafədən, məşğələ və laboratoriya dərsləri əyani olmaqla tədris prosesi hibrid formatda təşkil edilmişdir.

Yeni şəraitdə keyfiyyətli tədrisin təmin edilməsi, hibrid təhsil prosesində tələbələrin yüksək davamiyyətinə, fəallığına və mənimsəmə səviyyəsinə, biliyin qiymətləndirilməsi üzrə optimal mexanizmin tətbiqinə nail olunması qarşıya qoyulan əsas vəzifələrdən olmuşdur. Təhsil Nazirliyinin müvafiq dəstəyi, onlayn kommunikasiya alətlərinin geniş tətbiqi, infrastruktur imkanların və kadr potensialının səfərbər olunması, ötən dövr ərzində əldə edilmiş müsbət təcrübə və yeni tədris ilinə hazırlıqla bağlı görülmüş çevik tədbirlər sayəsində MDU hesabat dövründə bu vəzifələrin öhdəsindən uğurla gələ bilmiş, hibrid formatda təşkil olunan tədris prosesinin davamlılığını və əlçatanlığını təmin etmiş, yüksək tələbə məmnunluğuna nail olmuşdur.

Hesabat dövründə MDU-da imtahan sessiyaları Azərbaycan Respublikasının təhsil nazirinin “2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə” 10 dekabr 2021-ci il tarixli və “2021/2022-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının təşkili və keçirilməsi barədə” 19 may 2022-ci il tarixli əmrlərinin tələbləri və bunlara uyğun olaraq universitet rektorunun müvafiq əmrləri ilə təsdiq edilmiş qaydalar əsasında əyani formada təşkil edilmişdir. İmtahanların şəffaf, obyektiv və mütəşəkkil keçirilməsi məqsədilə MDU-da hər bir struktur bölməyə konkret tapşırıqlar verilmiş, dəqiq funksional iş bölgüsü aparılmış və digər bütün zəruri addımlar atılmışdır.Cari tədris ilinin payız və yaz imtahan sessiyalarının hər birində 3000-dən çox tələbə və magistrant 900-dən çox imtahanda iştirak etmişdir.

Mühazirə mətnləri, təqdimatlar, dərslik və dərs vəsaitləri, imtahan sualları və onların xülasə şəklində cavablarının elektron formatda tələbələrə çatdırılması tədris olunan fənlərin tələbələr tərəfindən mənimsənilmə səviyyəsinin yüksəlməsinə və onların akademik göstəricilərinin daha da yaxşılaşmasına şərait yaratmışdır. Son üç tədris ilində MDU tələbələrinin müvəffəqiyyət göstəricisi 95 faiz və ondan çox olmuşdur. Keyfiyyət göstərcisi isə təqribən 40 faizə qədər yüksəlmişdir. Müqayisə üçün qeyd edək ki, 2018/2019-cu tədris ilinin yaz semestrində müvəffəqiyyət və keyfiyyət göstəriciləri müvafiq olaraq, 78,9 və 18,7 faiz təşkil etmişdir **(şəkil 1)**.

Aparılan sorğulara əsasən, 2021/2022-ci tədris ilində imtahan sessiyalarını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək neqativ halları operativ surətdə aradan qaldırmaq məqsədilə həyata keçirilən sistemli və kompleks tədbirlər tələbə və müəllim kollektivi, eləcə də valideynlər və şəhər ictimaiyyəti nümayəndələri tərəfindən yüksək qiymətləndirilmiş və böyük məmnunluqla qarşılanmışdır.



Şəkil 1.



Şəkil 2.

Cari tədris ilində MDU-da tədrisin məzmununun təkmilləşdirilməsi və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə müvafiq laboratoriyaların və digər zəruri infrastrukturun yaradılması diqqət mərkəzində saxlanılmışdır. Belə ki, cari ildə universitetdə iki laboratoriya - “Kimya” və “Kiber Təhlükəsizlik” laboratoriyaları istifadəyə verilmişdir. Kimya laboratoriyası kimya, fizika və ekologiya istiqaməti üzrə spesifik tədqiqatların yerinə yetirilməsi, aidiyyəti fənlərin tədrisi zamanı müvafiq texniki və elmi təcrübələrin aparılması üçün zəruri avadanlıqlarla təchiz olunmuşdur. Kiber Təhlükəsizlik laboratoriyası isə Təhsil Nazirliyinin qrantı əsasında həyata keçirilən “Mingəçevir Dövlət Universitetində Kiber Təhlükəsizliklə bağlı Fənlərin Tədrisinin Təkmilləşdirilməsi” layihəsi çərçivəsində yaradılmışdır. Zəruri proqram təminatına malik 22 kompüterin mövcud olduğu laboratoriyanın açılışında təhsil naziri iştirak etmişdir. İnformasiya texnologiyaları, informasiya təhlükəsizliyi və kompüter mühəndisliyi ixtisasları üzrə seçilmiş fənlərin tədrisinin həyata keçiriləcəyi laboratoriya müvafiq istiqamətlər üzrə tədqiqatların aparılmasına da imkan verəcək. Qeyd edək ki, sözügedən layihənin əsas məqsədi informasiya texnologiyaları təhsili sahəsində MDU-nun potensialını artırmaqdan, kiber təhlükəsizlik üzrə modern təhsil modeli yaratmaqdan, tələbə, müəllim, məzun və tərəfdaşlar arasında kiber təhlükəsizliklə bağlı maarifləndirmə işini gücləndirməkdən ibarətdir.

Hesabat dövründə MDU-da tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə yaradılan İşçi Qrupu universitetdə tədrisin qabaqcıl yerli və beynəlxalq təcrübə əsasında müasir tələbələrə uyğun təkmilləşdirilməsi və məzmununun yenilənməsi ilə bağlı təkliflərin hazırlanması və reallaşdırılması istiqamətində fəaliyyət göstərmişdir.

Bunlarla yanaşı, cari tədris ilində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə əməkdaşlığın qurulması və bu çərçivədə MDU-nun akademik və inzibati heyət üzvləri üçün yeni akkreditasiya qaydaları, sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi barədə maarifləndirici seminarların keçirilməsi universitetdə ali təhsilin keyfiyyətinin təminatına və yaxşılaşdırılmasına hədəflənmişdir.

### Elmi fəaliyyətdə müsbət dəyişikliklər və yeni meyillər

Ölkənin və regionun inkişafına töhfə verən, səmərəli və nəticəyönümlü elmi fəaliyyətin həyata keçirilməsini diqqət mərkəzində saxlayan MDU-da son dövrdə elmi potensialın inkişaf etdirilməsi sahəsində görülən işlər nəticəsində müsbət keyfiyyət dəyişiklikləri müşahidə edilmiş və yeni meyillər meydana çıxmışdır.

Hesabat dövründə universitetdə beşillik elmi-tədqiqat işlərinin təsdiq edilmiş planı çərçivəsində dörd elm sahəsi üzrə (təbiət elmləri, texniki elmlər, ictimai elmlər, humanitar elmlər) ümumilikdə 16 problemi və 43 mövzunu əhatə edən müvafiq tədqiqatların aparılması davam etdirilmişdir.

MDU-da akademik heyət üzvlərinin tədqiqat bacarıqlarının artırılmasına və elmi fəaliyyətlərinin təşviq edilməsinə xüsusi diqqətin göstərilməsi, elmi nəşrlərdə dərc edilən əsərlərə görə əməkdaşların mükafatlandırılması universitetdə elmi fəaliyyətin genişlənməsinə və nüfuzlu beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrin sayının artmasına səbəb olmuşdur.2019-cu ildən 2022-ci ilin yarısınadək MDU əməkdaşlarının “Web of Science” bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrinin sayı (20 ədəd) 1991-2018-ci illər üzrə müvafiq göstəricidən (8 ədəd) 2,5 dəfə çox olmuşdur. Ümumilikdə, bu günə qədər sözügedən bazaya daxil olan jurnallarda universitetin akademik heyət üzvlərinin 28 məqaləsi dərc olunmuşdur **(şəkil 2)**.

MDU tarixində ilk elmi jurnal hesab edilən “Dayanıqlı inkişaf” multidissiplinar elmi jurnalının birinci və ikinci buraxılışları çap olunmuş və elektron variantda universitetin rəsmi saytında yerləşdirilmişdir. Jurnal Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) və E-ISSN kodu almış, “Academic Resource Index ResearchBib” beynəlxalq xülasələndirmə və indeksləşdirmə bazasına, eləcə də Ali Attestasiya Komissiyasının iqtisad elmləri üzrə Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

MDU-da yerli və xarici tərəfdaş ali təhsil müəssisələrinin doktoranturasında universitetin gənc əməkdaşları və məzunlarının təhsil almasına xüsusi diqqət yetirilmişdir. Hazırda universitetin 31 əməkdaşı fəlsəfə doktoru proqramı, 6 əməkdaşı isə elmlər doktoru proqramı üzrə ölkəmizin müxtəlif ali təhsil müəssisələrində və AMEA-nın sahə institutlarında dissertant və doktorantdırlar. 2021/2022-ci tədris ilində universitetin 5 əməkdaşı fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işlərini uğurla müdafiə etmiş, 8 nəfər doktorant və dissertant dissertasiya işlərini başa vurmuş və müdafiə ərəfəsindədir.Bundan əlavə, MDU-nun 1 əməkdaşı və 1 məzunu Türkiyənin Qazi Universitetində müvafiq olaraq “Təhsilin idarə edilməsi” və “Kompüter elmləri” ixtisasları üzrə doktorantura təhsili alırlar.Universitetin digər bir əməkdaşı isə doktorantura təhsilini Erasmus+ proqramı çərçivəsində Sloveniya Respublikasının Nova Gorica Universitetində davam etdirmişdir.

Hesabat dövründə MDU-da elmi fəaliyyətin səmərəliliyinin artırılması üzrə yaradılan İşçi Qrupunun təklifləri əsasında MDU-da magistr hazırlığının və doktorantlarla işin təkmilləşdirilməsi, müvafiq ixtisaslar üzrə doktorantura təhsilinin təşkili məqsədilə Magistratura və Doktorantura Təhsil Mərkəzi yaradılmış, “Dayanıqlı İnkişaf və Regional İnnovasiyalar” Tədqiqat Mərkəzi təsis edilmişdir.

2022-ci ilin may ayında AMEA-nın İqtisadiyyat İnstitutu və MDU arasında qarşılıqlı əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanmışdır. Memorandum elmi potensialın gücləndirilməsi məqsədilə tərəflər arasında müvafiq istiqamətlər üzrə birgə fəaliyyətlərin reallaşdırılmasını özündə ehtiva edir. İqtisadiyyat İnstitutu ilə əməkdaşlıq çərçivəsində MDU-da “Davamlı inkişafın milli prioritetləri və müasir transformasiya siyasətinin reallıqları” mövzusunda ilk birgə elmi konfrans keçirilmişdir.

MDU-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin dövlətçilik irsinin araşdırılması və tələbə gənclərə ötürülməsinə prioritet əhəmiyyət verilmiş, Ulu Öndərin anım gününə, anadan olmasının 99-cu ildönümünə və Milli Qurtuluş Gününə həsr olunan müxtəlif elmi tədbirlər keçirilmişdir. 2021/2022-ci tədris ilində “Tarixi reallıqlara çevrilmiş Heydər Əliyev ideyaları”, “Heydər Əliyev dühası və müasir Azərbaycan” və “15 iyun 1993-cü il: Azərbaycan xalqının parlaq gələcəyə aparan yolun başlanğıcı”mövzularında 3 elmi konfrans, “Ulu Öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası” və “Heydər Əliyev irsi müasir Azərbaycanın mədəni və intellektual sütunudur” mövzularında 2 elmi seminar, “Heydər Əliyev dühası və müstəqil Azərbaycan dövləti” mövzusunda “dəyirmi masa”, “Heydər Əliyev: dahi şəxsiyyət və tarix yaradan şəxsiyyət” və “Azərbaycanın dövlət müstəqilliyini əbədi və dönməz edən xilaskar lider” mövzularında 2 silsilə mühazirələr təşkil edilmişdir.

2021-ci ilin 10-11 dekabr tarixlərində Təhsil və İqtisadiyyat nazirliklərinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin, BMT-nin Azərbaycandakı Rezident Əlaqələndirici ofisinin, tərəfdaş yerli və xarici universitetlərin dəstəyi ilə MDU tarixində ilk dəfə olaraq “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.

Eyni zamanda, MDU “Mühəndislikdə süni intellekt və tətbiqi riyaziyyat” mövzusunda 4-cü beynəlxalq konfransa və “Dayanıqlı ağıllı kənd təsərrüfatı və islam maliyyəsi” mövzusunda 2-ci Karatay Beynəlxalq İslam İqtisadiyyatı və Maliyyəsi Konfransına tərəfdaşlıq etmişdir. Habelə, cəmiyyətin aktual problemlərinə və əlamətdar tarixi günlərə həsr olunan, o cümlədən Qarabağ Zəfərinin birinci ildönümü, “Şuşa İli”, Dövlət müstəqilliyinin bərpasının 30 illiyi, Müstəqillik Günü, Silahlı Qüvvələr Günü, 20 Yanvar faciəsinin 32-ci ildönümü, Xocalı soyqırımının 30-cu ildönümü, Elm Günü, Energetiklər Günü və Xalq yazıçısı Əzizə Cəfərzadənin 100 illiyi münasibətilə elmi tədbirlərin, eləcə də yerli və xarici tərəfdaş universitetlər və sənaye qurumları ilə birgə konfransların, nəzəri-praktiki seminarların, “dəyirmi masa”ların və mühazirələrin keçirilməsinə xüsusi önəm verilmişdir.

Bundan əlavə, magistrantlar tərəfindən həyata keçirilən tədqiqatların əsas nəticələrinin geniş ictimaiyyətə çatdırılması məqsədilə MDU-da ilk dəfə olaraq “Poster Sessiyaları” təşkil olunmuşdur. Cari ilin iyunun 28-də keçirilən ilk sessiyada Azərbaycan Respublikasının təhsil naziri də iştirak etmişdir.

**(ardı var)**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 29 iyun 2022-ci il tarixli F-409 nömrəli əmri ilə təsdiq edilmişdir*

# 2021-2022-ci tədris ilində keçirilən Respublika fənn olimpiadalarının qaliblərinin adlı siyahısı

| № | Ad | Soyad | Ata adı | Oğlu/qızı | Cins | Bölmə | Sinif | Şəhər/ rayon | Məktəb | Fənn | Yer |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Səhər | Fətəliyeva | Emin | qızı | Q | Azərbaycan | 9 | Astara | Şağlazüzə kənd tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | I yer |
| 2 | Rəvan | Babayev | Mehman | oğlu | K | Azərbaycan | 11 | Bakı | 181 nömrəli tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | I yer |
| 3 | Elçin | Əliyev | Cavanşir | oğlu | K | Azərbaycan | 11 | Bakı | 196 nömrəli tam orta məktəb | Azərbaycan dili və ədəbiyyat | I yer |
| 275 | Vüqar | Əliyev | İlham | oğlu | K | Azərbaycan | 11 | Masallı | Ərkivan qəsəbə (Bədirli kənd) Z.Nəcəfov adına 2 nömrəli tam orta məktəb | Coğrafiya | III yer |
| 276 | Emil | Bağırov | Məstalı | oğlu | K | Azərbaycan | 11 | Saatlı | Qırağlı kənd V.Əzimov adına tam orta məktəb | Coğrafiya | III yer |
| 277 | Rəşid | Talıblı | Cəmaləddin | oğlu | K | Azərbaycan | 11 | Saatlı | Qaracalar kənd Ə.Əhmədov adına tam orta məktəb | Coğrafiya | III yer |
| 278 | Cavid | Musayev | Nəzir | oğlu | K | Azərbaycan | 10 | Şəki | Kimya-biologiya təmayüllü lisey | Coğrafiya | III yer |
| 279 | Eyvaz | Cəfərov | Cəfər | oğlu | K | Azərbaycan | 11 | Şuşa | 1 nömrəli tam orta məktəb | Coğrafiya | III yer |
| 280 | Rüfət | Abdullayev | Daşqın | oğlu | K | Azərbaycan | 10 | Zərdab | 1 nömrəli məktəb-lisey | Coğrafiya | III yer |
| 281 | İsmayıl | Paşayev | Hilal | oğlu | K | Azərbaycan | 9 | Şahbuz | Şahbuz rayonu Badamlı qəsəbə tam orta məktəb | Coğrafiya | III yer |
| 282 | İlqar | Məmmədli | Vüqar | oğlu | K | Azərbaycan | 11 | Naxçıvan | Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına tam orta məktəb | Coğrafiya | III yer |
| 283 | Anar | Məmmədli | Amil | oğlu | K | Azərbaycan | 10 | Naxçıvan | Naxçıvan Muxtar Respublikası Heydər Əliyev adına Hərbi Lisey | Coğrafiya | III yer |
| 284 | Amil | İsmayılzadə | Vidadi | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Fizika | III yer |
| 285 | Fəqan | Fətəliyev | Vüqar | oğlu | K | Rus | 11 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Fizika | III yer |
| 286 | Məhəmməd | Xammədov | Rəşid | oğlu | K | Azərbaycan | 10 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Fizika | III yer |
| 287 | Nərgiz | Baxşəliyeva | Elçin | qızı | Q | Azərbaycan | 11 | Bakı | 34 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 288 | Pavel | Kuznetsov | Valeriyeviç | | K | Rus | 11 | Bakı | 214 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 289 | Rəhim | Rüstəmov | Qurban | oğlu | K | Azərbaycan | 11 | Bakı | 260 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 290 | Rəşad | Rəhimzadə | İnqilab | oğlu | K | Azərbaycan | 11 | Bakı | 212 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 291 | Rüfət | Məmmədov | Bəgiş | oğlu | K | Azərbaycan | 11 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Fizika | III yer |
| 292 | Vüsal | Əhmədov | Akif | oğlu | K | Azərbaycan | 11 | Bakı | 323 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 293 | Adəm | İsayev | İxtiyar | oğlu | K | Azərbaycan | 8 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Fizika | III yer |
| 294 | İbrahim | Valehli | Məhəmməd | oğlu | K | Rus | 8 | Bakı | Kaspi liseyinin Xətai filialı | Fizika | III yer |
| 295 | Namiq | İsazadə | Aydın | oğlu | K | Azərbaycan | 8 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Fizika | III yer |
| 296 | Nigar | Cəfərli | Ruslan | qızı | Q | Azərbaycan | 8 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Fizika | III yer |
| 297 | Selcan | Süleymanlı | Pərviz | qızı | Q | Azərbaycan | 8 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Fizika | III yer |
| 298 | Hüseyn | Babayev | Elçin | oğlu | K | Azərbaycan | 11 | Gəncə | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Fizika | III yer |
| 299 | Elşən | İskəndərli | Qabil | oğlu | K | Azərbaycan | 10 | Neftçala | E.Həbibov adına 4 nömrəli tam orta məktəb | Fizika | III yer |
| 300 | Fərid | Quliyev | Zaur | oğlu | K | Azərbaycan | 10 | Salyan | Ə.Kürçaylı adına 7 nömrəli texniki fənlər təmayüllü məktəb-lisey | Fizika | III yer |
| 301 | Nihad | Məmmədli | Seymur | oğlu | K | Azərbaycan | 11 | Sumqayıt | N.Gəncəvi adına texniki və təbiət elmləri liseyi | Fizika | III yer |
| 302 | Ramil | Nağıyev | Samir | oğlu | K | Azərbaycan | 10 | Sumqayıt | Təbiət Elmləri Təmayüllü Gimnaziya | Fizika | III yer |
| 303 | Elay | Məmişov | Ramin | oğlu | K | Azərbaycan | 8 | Sumqayıt | Təbiət Elmləri Təmayüllü Gimnaziya | Fizika | III yer |
| 304 | İbrahimxəlil | Həsənzadə | Azər | oğlu | K | Azərbaycan | 10 | Zərdab | 1 nömrəli məktəb-lisey | Fizika | III yer |
| 305 | Polad | Rəhimli | Fuad | oğlu | K | Azərbaycan | 9 | Şərur | Şərur şəhəri Fizika-Riyaziyyat Təmayüllü Lisey | Fizika | III yer |
| 306 | Əbdül | Axundzadə | Bəhruz | oğlu | K | Rus | 11 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | İnformatika | III yer |
| 307 | Elcan | Mustafayev | Söhrab | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 308 | Fərid | Mehdiyev | Məhərrəm | oğlu | K | Azərbaycan | 10 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | İnformatika | III yer |
| 309 | Hüseyn | Məmmədli | Müşfiq | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 310 | Hüseynağa | Quliyev | Fəxri | oğlu | K | Rus | 9 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | İnformatika | III yer |
| 311 | İsmayıl | Məhərrəmov | Fəxri | oğlu | K | Azərbaycan | 10 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 312 | Murad | İsmayılov | Kamran | oğlu | K | Rus | 11 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | İnformatika | III yer |
| 313 | Osman | Allazov | Fuad | oğlu | K | Azərbaycan | 10 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | İnformatika | III yer |
| 314 | Rəsul | Qasımlı | Ayaz | oğlu | K | Azərbaycan | 10 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 315 | Sahib | Əliyev | Elxan | oğlu | K | Azərbaycan | 10 | Bakı | 245 nömrəli tam orta məktəb | İnformatika | III yer |
| 316 | Şahmar | Ağayev | Zöhrab | oğlu | K | Azərbaycan | 11 | Bakı | 287 nömrəli "Zəkalar" liseyi | İnformatika | III yer |
| 317 | Vüsət | Orucov | İlqar | oğlu | K | Azərbaycan | 11 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 318 | Məhəmməd | Əliyev | Elməddin | oğlu | K | İngilis | 8 | Bakı | Bakı Modern Təhsil Kompleksi | İnformatika | III yer |
| 319 | Turab | Haqverdiyev | Kərim | oğlu | K | Azərbaycan | 8 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | İnformatika | III yer |
| 320 | Ayan | Kərimova | Xəyyam | qızı | Q | Azərbaycan | 8 | Gəncə | Fizika riyaziyyat və informatika təmayüllü lisey | İnformatika | III yer |
| 321 | Məhəmmədali | Məmmədəliyev | Niftəli | oğlu | K | Rus | 9 | Qusar | 2 nömrəli tam orta məktəb | İnformatika | III yer |
| 322 | Əlisa | Musayev | Camal | oğlu | K | Rus | 10 | Sumqayıt | 23 nömrəli tam orta məktəb | İnformatika | III yer |
| 323 | Nail | Şamsudinov | Nazim | oğlu | K | Rus | 11 | Sumqayıt | 11 nömrəli tam orta məktəb | İnformatika | III yer |
| 324 | Natiq | Məmmədov | Sadiq | oğlu | K | Azərbaycan | 10 | Şəki | Kimya-biologiya təmayüllü lisey | İnformatika | III yer |
| 325 | İlahə | Əliyeva | İlqar | qızı | Q | Azərbaycan | 11 | Ağdam | 74 nömrəli tam orta məktəb | Kimya | III yer |
| 326 | Aydan | Qəmbərova | Ceyhun | qızı | Q | Azərbaycan | 9 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Kimya | III yer |
| 327 | Daniil | Yarkovoy | Alekseyeviç | | K | Rus | 10 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Kimya | III yer |
| 328 | Əli | Mikayılov | Saleh | oğlu | K | Azərbaycan | 11 | Bakı | 63 nömrəli tam orta məktəb | Kimya | III yer |
| 329 | Fidan | Soltanova | İlqar | qızı | Q | Azərbaycan | 11 | Bakı | Bakı Avropa Liseyi | Kimya | III yer |
| 330 | Müslüm | Hacı-Sultanov | Əli | oğlu | K | Rus | 9 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Kimya | III yer |
| 331 | Sərxan | Məlikzadə | Mərkəz | oğlu | K | Azərbaycan | 11 | Bakı | Bakı Avropa Liseyi | Kimya | III yer |
| 332 | Əli | Bağırov | Əhmədəli | oğlu | K | Rus | 11 | Bakı | "Ankara məktəbi" məktəb-lisey | Kimya | III yer |
| 333 | Nəzrin | Əsgərova | Famil | qızı | Q | Azərbaycan | 9 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Kimya | III yer |
| 334 | Nəzrin | Həsənova | Tofiq | qızı | Q | Azərbaycan | 8 | Bakı | Kimya-biologiya təmayüllü Respublika liseyi | Kimya | III yer |
| 335 | Səməd | Nuriyev | Yusif | oğlu | K | Azərbaycan | 11 | Biləsuvar | M.İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi | Kimya | III yer |
| 336 | İlahə | Allahverdiyeva | Mürfəzil | qızı | Q | Azərbaycan | 11 | Füzuli | 33 nömrəli tam orta məktəb | Kimya | III yer |
| 337 | Ayxan | Alpaşayev | Orxan | oğlu | K | Azərbaycan | 9 | Gəncə | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Kimya | III yer |
| 338 | Jalə | Nəbiyeva | Etibar | qızı | Q | Azərbaycan | 9 | Gəncə | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Kimya | III yer |
| 339 | Nazim | Cəfərov | Seymur | oğlu | K | Azərbaycan | 10 | Gəncə | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Kimya | III yer |
| 340 | Emil | Əkbərli | Nazir | oğlu | K | Azərbaycan | 11 | İsmayıllı | Diyallı kənd A.Məmmədov adına tam orta məktəb | Kimya | III yer |
| 341 | Eşqin | Məlikli | Elşad | oğlu | K | Azərbaycan | 11 | İsmayıllı | Diyallı kənd A.Məmmədov adına tam orta məktəb | Kimya | III yer |
| 342 | Kənan | Məhərrəmli | Mehdi | oğlu | K | Azərbaycan | 11 | Sumqayıt | Ş.İ.Xətai adına 30 nömrəli tam orta məktəb | Kimya | III yer |
| 343 | Ləman | Yaşarlı | Dərya | qızı | Q | Azərbaycan | 10 | Şəki | Kimya-biologiya təmayüllü liseyi | Kimya | III yer |
| 344 | İlkin | Süleymanlı | Elçin | oğlu | K | Azərbaycan | 11 | Şəki | 11 nömrəli tam orta məktəb | Kimya | III yer |
| 345 | Pünhan | Mustafayev | Aqil | oğlu | K | Azərbaycan | 8 | Şəki | Kimya-biologiya təmayüllü lisey | Kimya | III yer |
| 346 | Dərya | Namazova | Zülfüqar | qızı | Q | Azərbaycan | 10 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 347 | Elmir | İsmayılov | Mikayıl | oğlu | K | Azərbaycan | 10 | Bakı | 182 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 348 | Fərid | Hacızadə | Samir | oğlu | K | Azərbaycan | 10 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Riyaziyyat | III yer |
| 349 | Fərrux | Əsədov | Fuad | oğlu | K | Azərbaycan | 10 | Bakı | 160 nömrəli Klassik gimnaziya | Riyaziyyat | III yer |
| 350 | Maisə | Babayeva | Rauf | qızı | Q | Azərbaycan | 11 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 351 | Metin | Qədirov | Yusif | oğlu | K | Azərbaycan | 10 | Bakı | Heydər Əliyev adına lisey | Riyaziyyat | III yer |
| 352 | Nihad | Əlizadə | Vüqar | oğlu | K | Azərbaycan | 10 | Bakı | 240 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 353 | Nıjat | Velıev | | | K | Azərbaycan | 10 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Riyaziyyat | III yer |
| 354 | Ömər | Quluyev | Eldəniz | oğlu | K | Azərbaycan | 11 | Bakı | 72 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 355 | Şamil | Mantaşlı | Natiq | oğlu | K | Azərbaycan | 11 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 356 | Səfurə | | Ramiz | qızı | Q | Azərbaycan | 10 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Riyaziyyat | III yer |
| 357 | Şükran | Mikayılzadə | Mühəndis | qızı | Q | Azərbaycan | 11 | Bakı | Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksi | Riyaziyyat | III yer |
| 358 | Yusif | Həsənov | Əhməd | oğlu | K | Azərbaycan | 11 | Bakı | 236 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 359 | Aqil | Həsənzadə | Sahil | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 360 | Aqşin | Novruzov | Fuad | oğlu | K | Azərbaycan | 8 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 361 | Əkbər | Mahmudzadə | Pərviz | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 362 | İbrahim | Kərimli | Elnur | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 363 | Mehdi | Nəcəf | İlham | oğlu | K | Azərbaycan | 9 | Bakı | Heydər Əliyev adına Müasir Təhsil Kompleksi | Riyaziyyat | III yer |
| 364 | Saleh | Məmmədli | Babək | oğlu | K | Azərbaycan | 9 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Riyaziyyat | III yer |
| 365 | Səid | Bəkirov | Pərviz | oğlu | K | Azərbaycan | 9 | Bakı | Fizika riyaziyyat və informatika təmayüllü lisey | Riyaziyyat | III yer |
| 366 | Xəyal | Əliyev | Şəhriyar | oğlu | K | Azərbaycan | 9 | Bakı | Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyi | Riyaziyyat | III yer |
| 367 | Raul | Ağayev | Mübariz | oğlu | K | Azərbaycan | 11 | İsmayıllı | 6 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 368 | Emil | Cəfərov | Adil | oğlu | K | Azərbaycan | 10 | Sumqayıt | Təbiət Elmləri Təmayüllü Gimnaziya | Riyaziyyat | III yer |
| 369 | Ziya | Məlikov | Xəyal | oğlu | K | Azərbaycan | 11 | Sumqayıt | Təbiət Elmləri Təmayüllü Gimnaziya | Riyaziyyat | III yer |
| 370 | Dəniz | Məmmədzadə | İlqar | qızı | Q | Azərbaycan | 9 | Şəki | Kimya-biologiya təmayüllü lisey | Riyaziyyat | III yer |
| 371 | İsa | Həbibbəyli | Səhət | oğlu | K | Azərbaycan | 9 | Naxçıvan | Naxçıvan şəhəri 5 nömrəli tam orta məktəb | Riyaziyyat | III yer |
| 372 | Seyidcahan | Əlizadə | İlqar | qızı | Q | Azərbaycan | 11 | Ağdaş | M.Şeyxzadə adına internat tipli TTH fənlər təmayüllü gimnaziya | Tarix | III yer |
| 373 | Aydan | Məmmədli | Nizami | qızı | Q | Azərbaycan | 9 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Tarix | III yer |
| 374 | Hüseyn | Babayev | Vəliş | oğlu | K | Azərbaycan | 10 | Bakı | 76 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 375 | Nuhay | Əlizadə | Ramin | qızı | Q | Azərbaycan | 11 | Bakı | Akademik Zərifə Əliyeva adına lisey | Tarix | III yer |
| 376 | Ramin | Allahverdiyev | Gündüz | oğlu | K | Azərbaycan | 11 | Bakı | 62 nömrəli məktəb-lisey | Tarix | III yer |
| 377 | Zəka | Mehdili | Malik | oğlu | K | Azərbaycan | 10 | Beyləqan | Əlinəzərli kənd R.Nəsirov adına 1 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 378 | Alimə | Əliyeva | Bayram | qızı | Q | Azərbaycan | 9 | Cəbrayıl | Cəbrayıl rayonu Tatar kənd tam orta məktəb | Tarix | III yer |
| 379 | Elvin | Abasquliyev | Qurban | oğlu | K | Azərbaycan | 8 | Cəbrayıl | 10 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 380 | İsa | Qarazadə | Ramiq | oğlu | K | Azərbaycan | 11 | Cəlilabad | Alar kənd R.Quliyev adına 3 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 381 | Rüfət | İsgəndərli | Çingiz | oğlu | K | Azərbaycan | 11 | Cəlilabad | Hacıməmmədli kənd tam orta məktəb | Tarix | III yer |
| 382 | İlqar | Aslanov | Knyaz | oğlu | K | Azərbaycan | 11 | Füzuli | 26 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 383 | Orxan | Nizamlı | Ülviyyət | oğlu | K | Azərbaycan | 10 | Füzuli | Horadiz qəsəbə M.Səfərov adına 1 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 384 | Rəvan | Xasıyev | Fazil | oğlu | K | Azərbaycan | 9 | İsmayıllı | Ruşan kənd Q.Məmmədov adına tam orta məktəb | Tarix | III yer |
| 385 | Sevər | Abduləhədova | Namiq Qızı | qızı | Q | Azərbaycan | 11 | Kürdəmir | Yenikənd kənd Q.Əhmədov adına tam orta məktəb | Tarix | III yer |
| 386 | Murad | Bağırov | Əziz | oğlu | K | Azərbaycan | 9 | Quba | T.Mikaylov adına 5 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 387 | Sadiq | Musayev | Zaur | oğlu | K | Azərbaycan | 11 | Masallı | Sığdaş kənd tam orta məktəb | Tarix | III yer |
| 388 | Elnur | Behputov | Elxan | oğlu | K | Azərbaycan | 11 | Mingəçevir | Təbiət-Riyaziyyat və Humanitar Elmlər Təmayüllü lisey | Tarix | III yer |
| 389 | Rəsul | Şirinov | İsmayıl | oğlu | K | Azərbaycan | 11 | Mingəçevir | N.Ahəngari adına 13 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 390 | Tofik | Lətifov | Mehman | oğlu | K | Azərbaycan | 11 | Oğuz | Qumlaq kənd İ.Rəhimov adına tam orta məktəb | Tarix | III yer |
| 391 | Uğur | Kərimli | Ceyhun | oğlu | K | Azərbaycan | 8 | Oğuz | 3 nömrəli məktəb-lisey | Tarix | III yer |
| 392 | Xanım | Hüseynquliyeva | Rafiq | qızı | Q | Azərbaycan | 11 | Sumqayıt | 32 nömrəli tam orta məktəb | Tarix | III yer |
| 393 | Vəfadar | Həmidzadə | Elsevər | oğlu | K | Azərbaycan | 9 | Şəki | Kimya-biologiya təmayüllü lisey | Tarix | III yer |
| 394 | Rəşad | Əkbərov | İlham | oğlu | K | Azərbaycan | 10 | Şəki | Aşağı Küngüt kənd tam orta məktəb | Tarix | III yer |
| 395 | Nuray | Heydərova | Pərviz | qızı | Q | Azərbaycan | 10 | Şəmkir | F.Salmanov adına tam orta məktəb | Tarix | III yer |
| 396 | Xədicə | Qənbərova | Ziyadxan | qızı | Q | Azərbaycan | 11 | Tərtər | Köçərli kənd tam orta məktəb | Tarix | III yer |
| 397 | Xədicə | Qarakişiyeva | Aydın | qızı | Q | Azərbaycan | 11 | Zaqatala | Akademik Zərifə Əliyeva adına lisey | Tarix | III yer |

# Narkomaniyaya YOX!

## "Ağ ölüm"lə mübarizədə bir olaq

Narkomaniya müasir dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial bəlalardan biridir. Narkomanlığa qarşı qətiyyətlə mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Hesablamalara görə, bu gün dünyada 250 milyona yaxın insan narkotiklərdən əziyyət çəkir. Bu, 15-64 yaş üzrə dünyada əhalinin 5%-ni təşkil edir. Narkomaniyanın qarşısının alınmasının əsas məqsədi sağlam mühit və sağlam gələcək yaratmaqdır. Buna görə də cəmiyyətdə və yaxın ətrafımızda sağlam həyat tərzini təbliğ etmək, zərərli vərdişlərə qarşı profilaktik tədbirlər görmək daim diqqətdə saxlanılan vacib məsələlərdəndir. Çünki sağlamlıq insanın yalnız xəstə olması ilə dəyərləndirilmir, eyni zamanda onun fiziki, psixi və sosial rifahıdır.




İnsan üçün ən vacib amil həyatda sağlamlıqdır, həmçinin psixoloji sağlamlıq nəzərdə tutulur. Bunun üçün valideyn və övlad arasında düzgün münasibətlərin qurulması, düzgün qidalanma, iş və asudə vaxtın səmərəli təşkili, idmanla məşğul olmaq və şəxsi gigiyenaya fikir verilməsi kimi əsas məqamlara xüsusi diqqət yetirmək lazımdır. Şəxsiyyətin formalaşmasında cəmiyyətin böyük rolu olsa da, birinci onun tərbiyə aldığı ailədir. Xüsusilə ata faktoru.

Nigahdan öncə tibbi müayinə artıq bütün dünyada ən çox danışılan və mübahisələrə, müzakirələrə səbəb olan mövzudur. Mütəxəssislərin fikrincə, nigahdan öncə tibbi müayinə gələcəkdə ailə üçün hərtərəfli - həm fiziki, həm də psixoloji baxımdan möhkəm zəmindir!

Narkomaniya insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vurur, sosial-iqtisadi inkişafa mənfi təsir göstərir, insanların həyat və sağlamlığına böyük təhlükə yaradır, həmçinin cinayətkarlığın artmasına səbəb olur. Narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımdan əsas məqsəd və vəzifələrdəndir. Bəşəriyyət üçün bəla olan, irqindən, yaşından, dinindən asılı olmayaraq bütün xalqları, millətləri düşündürən ən ağrılı problemlərdən biri narkomaniyadır. Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli bir prosesdir. İnsan amili dövlət siyasətinin əsasını təşkil edir. Dövlət başçısı İlham Əliyev çıxışlarında daim bildirir ki, həyata keçirilən siyasətin önündə vətəndaş amili dayanır. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərimizə diqqət və qayğı isə daha mühüm vəzifədir.

İnsan ölümü müxtəlif səbəblərdən baş verə bilər. Müharibələr, yoluxan xəstəliklər, avtomobil qəzaları, qətl hadisələri, intihar halları, təbii fəlakətlər, bəzi ölkələrdə aclıq və s. bu amillərin sırasındadır. Son vaxtlar bu sıraya "ağ ölüm" adlandırdığımız narkomaniya da əlavə olunub. Narkomaniya insanları tədricən məhv edir, ölümə aparır.

Narkotik asılılığın elmi anlayışı ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda isə narkomaniya müxtəlif xalqların genefonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə, ümumbəşəri bəlaya çevrilib. Digər tərəfdən, narkotik maddələrin qanunsuz dövriyyəsi gəlir əldə etmək üçün başlıca vasitə olub.

Narkotik maddələr - tələdir! Bu tələyə bir dəfə düşən insanın oradan çıxması çətin olur. Ən yaxşısı narkotikdən heç vaxt istifadə etməməkdir. Narkotik maddələr mərkəzi sinir sisteminə spesifik təsir göstərir və tez bir zamanda asılılıq yaradır. Narkotik yunanca "narke" sözündən götürülüb, mənası yuxu, bihuşluq, cəzb etmə, ağılsızlıq deməkdir. Narkomanlıq xroniki intoksikasiya doğuran və asılılıq yaradan bir xəstəlikdir.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzi üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insan fiziki və psixoloji cəhətdən məhv olur. Narkomaniya yaddaş və təfəkkürü pozur, həyati proseslərə qarşı laqeydlik yaradır. Orqanizmin zəifləməsi, daxili orqanların, xüsusən də qaraciyər və böyrəklərin funksiyasının pozulmasına səbəb olur. Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepoetitidir. Bundan başqa, narkomanlar ən çox QİÇS virusuna yoluxurlar.

Narkotik aludəçilərinə sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər ola bilər. Narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.

Təəssüf ki, bu gün narkotik aludəçilərinin əksəriyyəti gənc nəslin nümayəndələridir. Bu hal çox qorxuludur. Çünki gənclər hər bir millətin gələcəyi, dövləti inkişaf etdirən başlıca sütundur. Gənclər arasında idmanın, mədəni- kütləvi tədbirlərin genişləndirilməsi, idmana marağın artırılması naminə inşa olunan idman komplekslərinin tikilməsində də əsas məqsədlərdən biri sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların belə ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılmasına nail olmaqdır.

Ötən yüzilliyin bəlalarından sayılan narkomaniya təəssüflər olsun ki, 21-ci əsrdə də qlobal problem olaraq qalmaqdadır.

**Töhfə İSMAYILOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi*


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4079 **Sifariş** 1964

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Gəncə Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Məmmədova Əsmər Asif qızına verilmiş B-144707 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Əliquluuşağı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Hacıyeva (Qarayeva) Kəmalə Güloğlan qızına verilmiş B-035336 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbi 25.06.2009-cu ildə bitirmiş Abbasova Sona Zakir qızına verilmiş B-593535 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Gülalan kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Babayev İntiqam Bəylər oğluna verilmiş E-111288 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 250 nömrəli tam orta məktəbi 28.06.2003-cü ildə bitirmiş Yarıyev Rəşad Məhəmməd oğluna verilmiş A-683073 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 1972-ci ildə bitirmiş İsmayılova Püstə Mamed qızına verilmiş 104200 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanərəb kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Əliyeva (Zülfüqarova) Sevinc Şakir qızına verilmiş A-354188 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Mollalı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Quliyeva Aynur Aqil qızına verilmiş B-456753 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2006-cı ildə Rəhimov Orxan Araz oğluna verilmiş BB-II-030917 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta məktəbi 12.07.2019-cu ildə bitirmiş Seyidov Asim Zaur oğluna verilmiş E-212028 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 02.07.2009-cu ildə Mayılova (Əliyeva) Ləzifə Çingiz qızına verilmiş BB-045857 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 27.06.2013-cü ildə bitirmiş Abdullayev Sərxan Sərdar oğluna verilmiş A-196144 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2009-cu ildə Alıyev İntiqam İntizam oğluna verilmiş B-150839 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya Universiteti** tərəfindən 22.02.2018-ci ildə Əsgərov Ülvin Nəsrəddin oğluna verilmiş A-138759 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 299 nömrəli məktəb-liseyin IX sinfini 01.07.2021-ci ildə bitirmiş Alyarov Afşin Elçin oğluna verilmiş C-474099 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Quliyev Orxan Vidadi oğluna verilmiş E-113852 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Adnalı kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Şərbətova Zümrüd Məmməd qızına verilmiş 1090 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər humanitar təmayüllü məktəb-liseyi 2013-cü ildə bitirmiş Həsənova Türkan Şahin qızına verilmiş A-223037 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qurbanov Fərid Yediyar oğluna verilmiş B-111196 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Yengicə kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Abbasov Elşən Hüseyn oğluna verilmiş A-603164 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 16.06.2020-ci ildə bitirmiş Həsənov İlkin Qoşqar oğluna verilmiş E-271943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbin IX sinfini 15.06.1994-cü ildə bitirmiş Aslanov Cavanşir Ənvər oğluna verilmiş (nömrəsiz) ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Gəncə Peşə Məktəbi** tərəfindən 30.06.1999-cu ildə Abbasova (Seyidova) Saida Alim qızına verilmiş AB-037978 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2001-ci ildə Həsənova Minayə Telman qızına verilmiş BB-II-116772 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**177 nömrəli Orta Texniki Peşə Məktəbi** (indiki 14 nömrəli Bakı Peşə Məktəbi) tərəfindən 20.07.1988-ci ildə Abdullayev Nazim Ağaqulu oğluna verilmiş B-092574 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 20 nömrəli Peşə Məktəbi** tərəfindən 2010-cu ildə Mityurev Vadim Radil oğluna verilmiş B-745683 nömrəli attestat və BB-021754 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin alman dili müəllimi Jalə Kərimliyə əzizi

**ELÇİN MƏMMƏDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# MÜƏLLİM olmaq istəyirəm...



⇦ Əvvəli səh.1

Gecikməkdən ehtiyat edənlərdir hər biri. Bilirlər ki, gecikən imtahandan qalır. İmtahahan qaydalarına görə, namizəd vaxtında şəxsi səhifəsində qeyd olunan tarix və məkanda olmalıdır ki, imtahanda iştirak edə bilsin. Qeydiyyat prosesinə gecikən namizədlər imtahan binasına buraxılmır.

Əllərində kitabla yerə oturub imtahan saatına qədər oxumaqda kəramət axtaranlar da gözümüzdən qaçmır. Aralarında artıq müəllim işləyən də var. Amma bu gün müəllim olduğunu unudub, imtahan həyəcanı yaşayırlar...

**“Balamı müəllim görmək istəyirəm”**

Çöldə həyəcanlananlardan biri anadır. Yaqut Orucova qızı Nərminin yolunu gözləyir. Ötən il Bakı Dövlət Universitetindən məzun olub: “Müəllim işləmək istəyir. Mənim də arzumdur, balamı müəllim görmək istəyirəm. Məktəbə getdiyini, dərsə girdiyini görmək ən böyük xəyalım olub”.

**İmtahan gedir**

AzTU-nun hər 3 imtahan zalı dolu olsa da, ara-sıra boş yerlər də görünürdü. İmtahana nəzarət edən “Bir” könüllü əməkdaşlarının sözlərinə görə, boş olanlar imtahana gəlməyənlərin yeridir.

**TEST-də yenilik: imtahan üçün verilən vaxtdan tutmuş toplanan bala qədər hər şey dəyişdi**

Müsabiqənin test imtahanı mərhələsində hər bir namizədə onun ixtisası üzrə ümumtəhsil müəssisələrinin fənn proqramlarına aid 40 sual, tədris metodikası və təlim strategiyalarına aid 20 sual təqdim edilir. Ötən illərdən fərqli olaraq bu il test tapşırıqlarının cavablandırılması üçün namizədlərə 120 dəqiqə vaxt verilib. Bu mərhələdə ixtisas üzrə düzgün cavablandırılan test tapşırıqları 2 bal, tədris metodikası və təlim strategiyaları üzrə isə 1 bal olaraq hesablanır. Ümumilikdə 100 ballıq qiymətləndirmə sistemi tətbiq edilir.

Bu il imtahanlarda dəyişikliklərdən biri hesablanma qaydası ilə bağlıdır. Belə ki, bu il test mərhələsi namizədlərdən daha çox diqqət tələb edir. Çünki yeni qaydalara əsasən, səhv cavablandırılan test tapşırıqları imtahan nəticəsinə təsir göstərir. İxtisas üzrə 1 səhv cavablandırılmış sual - 0,5 bal, tədris metodikası üzrə isə - 0,25 bal şəklində hesablanır və doğru cavablardan silinir.

**Bərabər imtahan şəraiti**

Test imtahanı mərhələsinin ən böyük yeniliklərindən biri Azərbaycan dili və Ədəbiyyat, ibtidai sinif və ingilis dili fənlərini çıxmaq şərtilə, digər bütün fənlər üzrə imtahanların eyni gündə, eyni saatda təşkil edilməsidir. İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli “Azərbaycan müəllimi” qəzetinə belə deyib: “Bu il əsas nail olmağa çalışdığımız hədəflərdən biri ayrı-ayrı fənlər üzrə imtahanları eyni gündə, hətta eyni vaxtda keçirmək idi. Bu istiqamətdə Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi ilə birlikdə çox ciddi işlər görülüb. Nəticədə 5000-dən artıq namizədin eyni vaxtda imtahan verməsinə nail olduq. Bununla da riyaziyyat müəllimliyi üçün imtahan verən bütün namizədlərə bərabər imkanlar yaratdıq. 19 fənn üzrə imtahanlar keçiririk, onlardan 16-sı üzrə belə bir problemimiz olmayacaq”.

Yəni ayrı-ayrı fənlər üzrə bütün namizədlər eyni vaxtda, eyni saatda, eyni həcmdə, çətinlik və ya asanlıqda suallara cavab verəcəklər.

N.İsmayılbəyli məzmun dəyişikliyinə də diqqət çəkib: “Digər fənlər üzrə də məzmunun təkmilləşdirilməsi baxımından əlimizdən gələni edirik. Bu il çalışmışıq ki, namizədlərə faydalı, yararlı, qiymətləndirmə çərçivəsinə uyğun suallar təqdim olunsun. Qiymətləndirmə şkalamız dəyişib. Əvvəl 60 sual 60 bal idi, səhv cavabın düzə təsiri yox idi. Bu da eyni bala sahib namizədlərin fərqləndirilməsində problemlər yaradırdı. Artıq səhvlərin düzə təsir etməsi namizədlər arasında fərqi daha bariz ortaya qoyacaq. Əvvəl 55 və 56 bal arasında heç bir fərqləndirmə yox idi. Ancaq indi 57 və 58 bal arasında 4 müxtəlif şkala yarana bilər. Bu nöqteyi-nəzərdən namizədləri də, elə bizim özümüzü də fərqli imtahan gözləyir. Bu imtahanların nəticələri özümüz üçün də olduqca maraqlıdır. Bilmək istədiklərimizdən biri odur ki, 90-100 ballı namizədlər neçə nəfər olacaq? Orta bal harda formalaşacaq? Namizədlərin hazırlıq səviyyəsinə baxsaq, ötən illərin nəticələrinə əsasən deyə bilərik ki, 60 faizdən yuxarı namizədlərin sayı çoxdur. 60 ballıq sistemdə bu, özünü göstərirdi. İndi görək 100 ballıq sistemdə bu, necə əks olunacaq?”

N.İsmayılbəylinin sözlərinə görə, bu il ən çox ibtidai sinif müəllimliyinə, ən az xarici dil müəllimliyinə imtahan verəcək: “Ölkəmizdə əsas tədris olunan xarici dil fənni ingilis dilidir. Az tədris olunan isə alman və fransızdır. Buna görə də bu dillər üzrə imtahan verənlərin sayı azdır”.

Mərkəz direktoru müəllimlərin işə qəbul imtahanında ən çox ibtidai sinif müəllimliyi üzrə namizədlərin çoxluq təşkil edəcəyini, təxminən 11 mindən çox namizəd olacağını vurğulayıb.

## Bu gün 9000-dən çox namizəd imtahan verəcək



Yaqut Orucova



Nurlan İsmayılbəyli



Fürüzə Qasımova



**İmtahan bitmədən suallar bitdi?**

İmtahan üçün 120 dəqiqə vaxt verilsə də, 40 dəqiqə sonra namizədlər çıxmağa başladılar. Çıxanların əksəriyyəti uğursuz nəticə əldə edib. Bəziləri “Körpə uşağım var, o məni gözləyir”, - deyir. Uğursuzluğa baxmayaraq, imtahandan danışmaqdan çəkinməyənlər də var. Məsələn, Elnarə Hüseynova Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur. Ötən il imtahan verib: “Keçən ilə nisbətən suallar normal idi. Çətin suallar vardı. Təşkilati baxımdan da ötən illə müqayisədə bu dəfə üstünlüklər çoxdur. Məsələn, bu dəfə namizədlərin arasına çəkilən lövhə yanındakı namizədin ekranını görmək və ondan köçürmək ehtimalını aradan qaldırdı”.

Daha bir namizəd çıxır. Fürüzə Qasımova Naxçıvandandır. 36 bal toplayıb. Şərur rayon Dərəkənd tam orta məktəbinin müəllimi sertifikasiya imtahanı da verib və dediyinə görə, sertifikasiya elə MİQ imtahanlarına bənzəyir:

“Naxçıvanda sertifikasiya imtahanlarında da iştirak edib 58 bal toplamışam. Burda 36 bal görəndə təəccübləndim. Hər halda səhv cavablara görə belə çıxdı nəticəm. Suallar çox yaxşıydı. Əslində, bu imtahanda elə suallarla tanış olmaq üçün iştirak etdim. MİQ imtahanlarında kurikulum sualları daha çətin gəldi mənə”.

Dünən əvvəlcə riyaziyyat, sonra fiziki tərbiyə, alman və fransız dilləri üzrə imtahanlar keçirildi.İmtahanların ilk günündə 8000-dən artıq namizəd dəvət olunmuşdu. Onların 80 faizi imtahanlara qatılıb.

Bu gün isə Azərbaycan dili, Azərbaycan dili və Ədəbiyyat, Texnologiya müəllimliyinə 9000-dən çox namizəd imtahan verəcək.

Ümumilikdə 54 min 745 namizədin iştirakı planlaşdırılan müsabiqə 7 gün ərzində ölkənin 10 müxtəlif şəhəri olmaqla, 15 imtahan mərkəzində təşkil olunub.

**Ruhiyyə DAŞSALAHLI**